***TARİXİN TƏDRİSİ METODİKASI***
***METHODOLOGY OF TEACHING HISTORY***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИСТОРИИ***

*UOT 372.893*

***Sevil Şivəxan qızı Bəhrəmova***
*Bakı Avrasiya Universitetinin*
*Ümumi fənlər kafedrasının müdiri*
*tarix üzrə fəlsəfə doktoru, dosent*
*https://orcid.org/0000-0002-4886-0101*
*E-mail: sevil_behremova@mail.ru*
*https://doi.org/10.69682/arti.2026.93(3).90-95*

# TARİXİN MƏZMUN XƏTLƏRİ ƏSASINDA TƏDRİSİN ƏHƏMİYYƏTİ

***Sevil Shivakhan Bahramova***
*Baku Eurasia University*
*head of the department of General studies,*
*doctor of philosophy in history, associate professor*

# THE IMPORTANCE OF TEACHING HISTORY BASED ON CONTENT LINES

***Севиль Шивахан гызы Бахрамова***
*заведующий кафедрой Общих дисциплин*
*Бакинского Евразийского Университета*
*доктор философии по истории, доцент*

# ЗНАЧЕНИЕ ПРЕПОДАВАНИЯ ИСТОРИИ НА ОСНОВЕ СОДЕРЖАТЕЛЬНЫХ ЛИНИЙ

**Xülasə.** Məqalədə tarix fənninin məzmun xətləri əsasında tədrisinin əhəmiyyəti araşdırılmışdır. Tədqiqatda tarix kurikulumunda müəyyən edilmiş beş əsas məzmun xətti, tarixi zaman, tarixi məkan, dövlət, şəxsiyyət və mədəniyyət əsasında tədrisin şagirdlərdə tarixi düşüncənin, analitik və tənqidi təfəkkürün formalaşmasına təsiri təhlil olunmuşdur. Müəyyən edilmişdir ki, məzmun xətləri əsasında təşkil olunan təlim prosesi tarixi hadisə və proseslərin sistemli və ardıcıl şəkildə mənimsənilməsinə, səbəb-nəticə əlaqələrinin qurulmasına və milli-mənəvi dəyərlərin aşılanmasına imkan yaradır. Məqalədə məzmun xətlərinin tarix təliminin inkişafetdirici və tərbiyəedici funksiyalarının reallaşdırılmasında rolu əsaslandırılmışdır.
***Açar sözlər:*** *tarix fənni, məzmun xətləri, tarixi zaman, tarixi məkan, dövlət, şəxsiyyət, mədəniyyət*

**Abstract.** The article examines the significance of teaching history based on content lines. The study analyzes the impact of instruction organized according to five main content lines defined in the history curriculum, historical time, historical space, state, personality, and culture-on the development of students' historical thinking as well as their analytical and critical thinking skills. It is determined that teaching based on content lines ensures a systematic and consistent understanding of historical events and processes, facilitates the establishment of cause-and-effect relationships, and contributes to the formation of national and moral values. The role of content lines in implementing the developmental and educational functions of history education is substantiated.
***Keywords:*** *history education, content lines, historical time, historical space, state, personality, culture*

**Аннотация.** В статье рассматривается значение преподавания истории на основе содержательных линий. В исследовании анализируется влияние обучения по пяти основным содержательным линиям, определённым в учебной программе по истории, историческое время, историческое пространство, государство, личность и культура- на формирование у учащихся исторического мышления, аналитического и критического мышления. Установлено, что организация учебного процесса на ос-

нове содержательных линий способствует системному и последовательному усвоению исторических событий и процессов, установлению причинно-следственных связей и формированию национально-нравственных ценностей. Обоснована роль содержательных линий в реализации развивающей и воспитательной функций обучения истории.

***Ключевые слова:*** *история, содержательные линии, историческое время, историческое пространство, государство, личность, культура*

Müasir təhsil sistemində tarix fənninin tədrisi yalnız keçmiş hadisələr haqqında məlumat vermək məqsədi daşımır, eyni zamanda şagirdlərdə tarixi düşüncə, vətəndaşlıq mövqeyi, milli-mənəvi dəyərlərə hörmət və analitik təfəkkür formalaşdırmağı qarşıya məqsəd qoyur. Bu məqsədlərin reallaşdırılmasında kurikulum yanaşmasının əsas komponentlərindən biri olan məzmun xətləri xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının ümumi təhsil üzrə tarix kurikulumunda tarix fənninin məzmunu beş əsas məzmun xətti əsasında strukturlaşdırılmışdır: tarixi zaman, tarixi məkan, dövlət, şəxsiyyət və mədəniyyət (1).

Tarixin məzmun xətləri əsasında tədrisi təlim prosesinin sistemli, ardıcıl və nəticəyönümlü təşkilinə imkan yaradır. Bu yanaşma şagirdlərin tarixi hadisə və prosesləri parçalanmış şəkildə deyil, bütöv və əlaqəli formada qavramasına şərait yaradır. Məzmun xətləri fənnin əsas ideyalarını, aparıcı anlayışlarını və inkişaf istiqamətlərini əks etdirən struktur komponentlərdir. Onlar təlim məzmununun sistemləşdirilməsinə, məqsədlərin düzgün müəyyənləşdirilməsinə və öyrənmə nəticələrinin ardıcıl şəkildə formalaşdırılmasına xidmət edir (2, s. 18).

Tarixi zaman məzmun xətti şagirdlərdə xronoloji düşüncənin formalaşdırılmasına xidmət edir. Bu məzmun xətti vasitəsilə şagirdlər tarixi hadisələrin başvermə ardıcıllığını, dövrləşdirməni və zaman anlayışını dərk edirlər. Tarixi zaman anlayışının mənimsənilməsi hadisələr arasında səbəb-nəticə əlaqələrinin qurulmasında mühüm rol oynayır (14, s. 31).

Tarixi məkan məzmun xətti isə tarixi hadisələrin coğrafi mühitlə əlaqəsini öyrənməyə imkan verir. Bu yanaşma şagirdlərdə tarixi proseslərin məkan amili ilə qarşılıqlı əlaqəsini anlama bacarığını formalaşdırır. Tarixi məkanın öyrənilməsi coğrafiya fənni ilə inteqrasiyanı gücləndirir və tarixi hadisələrin daha dolğun qavranılmasına şərait yaradır. Tarix fənnində məzmun xətləri şagirdlərin tarixi bilikləri yalnız faktoloji səviyyədə deyil, eyni zamanda analitik və dəyərləndirici səviyyədə mənimsəməsinə imkan yaradır. Beş əsas məzmun xətti tarixi hadisə və proseslərin müxtəlif aspektlərini əhatə etməklə, tarix təliminin çoxşaxəli xarakterini təmin edir.

Dövlət məzmun xətti tarix fənninin ən mühüm istiqamətlərindən biridir. Bu məzmun xətti vasitəsilə şagirdlər dövlətçilik ənənələrinin formalaşması, siyasi quruluşların inkişafı, idarəetmə formaları və hüquqi münasibətlər haqqında biliklər əldə edirlər. Dövlət məzmun xətti şagirdlərdə vətəndaşlıq şüurunun, hüquqi düşüncənin və ictimai məsuliyyət hissinin formalaşmasına xidmət edir. Tarixin dövlət məzmun xətti əsasında tədrisi şagirdlərin müasir siyasi prosesləri dərk etməsinə, tarixi təcrübədən nəticə çıxarma bacarığının inkişafına şərait yaradır. Bu isə tarix fənninin praktik və tərbiyəvi əhəmiyyətini artırır (1).

Şəxsiyyət məzmun xətti tarixi şəxsiyyətlərin fəaliyyətinin və rolunun öyrənilməsini əhatə edir. Bu yanaşma şagirdlərdə liderlik keyfiyyətlərinin, vətənpərvərlik hissinin və əxlaqi dəyərlərin formalaşmasına mühüm təsir göstərir. Tarixi şəxsiyyətlərin fəaliyyəti konkret tarixi şərait kontekstində təhlil olunduqda şagirdlərdə obyektiv və tənqidi düşüncə inkişaf edir. Şəxsiyyət məzmun xətti şagirdlərə tarixi proseslərdə fərdin rolunu dərk etməyə, tarixi hadisələrin yalnız ümumi proseslər deyil, həm də konkret insanların fəaliyyəti nəticəsində formalaşdığını anlamağa imkan verir (10, s.123).

Mədəniyyət məzmun xətti tarix təliminin tərbiyəvi mahiyyətini daha da gücləndirir. Bu məzmun xətti vasitəsilə şagirdlər maddi və mənəvi mədəniyyət nümunələri, adət-ənənələr, incəsənət, elm və təhsil tarixi ilə tanış olurlar. Mədəniyyət məzmun xətti milli kimliyin formalaşmasında və mədəni irsə hörmət hissinin aşılanmasında mühüm rol oynayır.

Tarixin mədəniyyət məzmun xətti əsasında tədrisi şagirdlərdə tolerantlıq, multikultural dəyərlər və ümumbəşəri mədəni irsə hörmət kimi keyfiyyətlərin formalaşmasına şərait yaradır. Aparılan təhlil göstərir ki, tarixin beş məzmun xətti-tarixi zaman, tarixi məkan, dövlət, şəxsiyyət və mədəniyyət-əsasında tədrisi tarix fənninin

elmi, tərbiyəvi və inkişafetdirici funksiyalarının həyata keçirilməsində mühüm rol oynayır(13). Bu yanaşma təlimin sistemliliyini, ardıcıllığını və nəticəyönlüyünü təmin edir, şagirdlərin tarixi düşüncə və vətəndaşlıq mövqeyinin formalaşmasına şərait yaradır. Dərslərin tədrisi zamanı məzmun xətləri arasında əlaqəni gözləmək və təhsilalanlara bilik və bacarıqların ötürülməsində inteqrativliyi təmin etmək xüsusi əhəmiyyətlidir.

İnteqrasiya olunmuş dərslərin məzmunu və strukturunun müəyyənləşdirilməsi, ilk növbədə, yaradıcılıq qabiliyyətlərinin inkişafı vəzifələrinə uyğun aparılmalıdır.

Tədqiqat və müşahidələr nəticəsində inteqrasiya olunmuş təlimin aşağıdakı əsas prinsipləri müəyyənləşdirilmişdir:

1. Şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almaqla yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması prinsipi;
2. Təhsil məzmununun bütövlüyü prinsipi;
3. Assosiativ əlaqələr prinsipi;
4. Yenilik prinsipi (3, s.76).

1. Şagirdin fərdi xüsusiyyətlərini nəzərə almaqla yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması prinsipi

Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, yaradıcılıq qabiliyyətlərinin inkişafı inteqrativ təlim mühitində həyata keçirilir və bu proses şagirdin fərdi potensialına əsaslanır. Şagird təlim zamanı əldə etdiyi bilik və bacarıqları müxtəlif situasiyalarda tətbiq etməklə subyektiv yenilik yaradır. Yaradıcı fəaliyyətin inteqrativ xarakteri onu həm proses, həm də nəticə kimi dəyərləndirməyə imkan verir: burada şagird yalnız mövcud bilikləri mənimsəmir, eyni zamanda onları transformasiya edərək yeni ideyalar və məhsullar yaradır.

İnteqrasiya olunmuş dərslərdə bu prinsipin tətbiqi şagirdlərdə aşağıdakı bacarıqların formalaşmasına imkan verir:

- həyati və tədris baxımından əhəmiyyətli bilikləri seçmək və tətbiq etmək;
- qeyri-standart vəziyyətlərdə yaradıcı düşünmək və problem həllinə yönəlmək;
- yeni biliklərə ehtiyac hissi formalaşdırmaq;
- yeni fəaliyyət üsulları və qərar modelləri yaratmaq.

Beləliklə, inteqrasiya olunmuş dərslər yalnız fənlərarası əlaqələrin təmin olunmasına deyil, həm də təhsil prosesinin fərdiləşdirilməsi, yaradıcı potensialın inkişafı və məzmun standartlarının məqsədyönlü reallaşdırılması üçün effektiv mühitin formalaşmasına xidmət edir.

İnteqrasiya olunmuş təlim prosesi şagirdlərin yaradıcılıq fəaliyyətinə aktiv şəkildə qoşulmasını, yeni problemlərin həlli yollarını tapmaq bacarığını və reallığı yaradıcı formada dəyişdirməyə hazırlığını təmin edir. Bu prosesdə şagirdlər aşağıdakı istiqamətlərdə fəaliyyət göstərirlər:

- öyrənilən obyektin yeni funksiyasına yaradıcı baxışın formalaşdırılması;
- mövcud fəaliyyət üsullarını yeniləri ilə sintez etmək bacarığı;
- obyektin strukturuna alternativ baxışın inkişafı;
- verilmiş problemin bir neçə həlli variantının müəyyənləşdirilməsi;
- məlum olanlardan fərqli, orijinal və prinsipcə yeni həllərin yaradılması(3, s.169).

Bu istiqamətlər şagirdlərdə təfəkkürün çevikliyi, alternativ düşüncə tərzi və problemə yaradıcı yanaşma bacarığı kimi əsas səriştələrin inkişafına xidmət edir. Belə bacarıqlar məzmun standartlarında nəzərdə tutulan yaradıcı və tədqiqatyönlü nəticələrin əldə olunması üçün vacib baza yaradır.

2. Tədris məzmununun bütövlüyü prinsipi

Təhsil məzmununun bütövlüyü prinsipi inteqrativ təlimin əsas dayaq nöqtələrindən biridir. Bu prinsip təlim prosesində bilik, bacarıq və vərdişlərin qarşılıqlı əlaqəsini təmin etməklə, tədris materialının parçalanmasının qarşısını alır və şagirdlərdə dünyanın vahid mənzərəsinin formalaşmasına kömək edir. Tədris məzmununun bütövlüyü, həm də fənlərarası və daxili fənn əlaqələrinin koordinasiyasını təmin edir.

Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, ümumi və xüsusi fənlərin sərhədləri arasında süni bölünmələrin aradan qaldırılması məqsədilə onların qarşılıqlı inteqrasiyası həyata keçirilsin. Bununla şagird yalnız ayrı-ayrı bilik sahələrini deyil, həm də onların qarşılıqlı təsirini dərk edir, dünya haqqında sistemli və əlaqəli təsəvvür formalaşdırır. Bu isə kurikulumda müəyyənləşdirilmiş məzmun standartlarının vahid şəkildə reallaşdırılmasına, fənlərarası düşüncə modelinin formalaşmasına və kompleks problemlərin həllinə şərait yaradır.

Təhsil sistemi inteqral bir struktur kimi məqsədlər, tədris məzmunu, pedaqoji ünsiyyət vasitələri, müəllim və şagird fəaliyyət formaları, həmçinin tədris metod və resurslarının qarşılıqlı

əlaqəsinə əsaslanır. Tədris prosesinin sistem xarakteri onun bütün komponentlərinin vəhdətini tələb edir: təlim məqsədləri, müəllimin yönəldici fəaliyyəti, şagirdin fəal öyrənmə fəaliyyəti və əldə olunan nəticələr. Bu komponentlərin hər biri dəyişkən olsa da, onların harmonik vəhdəti tədris və təlimin səmərəli birgə fəaliyyətinə çevrilir. Nəticədə, çoxsaylı elementlər və əlaqələr bir-birini tamamlayaraq inteqral təhsil sistemi yaradır.

3. Assosiativ əlaqələr prinsipi

Assosiativ əlaqələr prinsipi inteqrasiya olunmuş təlimdə mühüm psixoloji əsas kimi çıxış edir. Bu prinsipə görə, öyrənmə prosesində şagirdin təfəkküründə yeni biliklər mövcud biliklərlə əlaqələnir və bu əlaqə nəticəsində daha dərin, sabit və mənalı öyrənmə baş verir. Assosiasiyalar şagirdin idrak fəaliyyətində hadisələr, anlayışlar və obrazlar arasında daxili əlaqələr qurmağa imkan verir.

Belə əlaqələr nəticəsində bir anlayışın yaranması digərinə istinad yaradır, bu da təfəkkürün çevikliyini, yaddaşın fəallığını və təxəyyülün genişlənməsini təmin edir. Məhz bu mexanizm yaradıcı potensialın əsasını təşkil edir. Analiz və sintez əməliyyatlarının qarşılıqlı fəaliyyəti nəticəsində şagird müxtəlif obyektlər arasında bənzərlikləri və fərqləri müəyyənləşdirir, fərqli situasiyalarda oxşar düşüncə modellərini tətbiq edə bilir.

Assosiativ əlaqələrin zənginliyi və çevikliyi şagirdin yaradıcı potensialını, yeni bilikləri mənimsəmə və tətbiqetmə bacarığını, həmçinin problemlərə çevik və qeyri-ənənəvi yanaşma qabiliyyətini müəyyənləşdirir. Buna görə də bu prinsipin həyata keçirilməsi inteqrasiya olunmuş dərslərin əsas psixoloji və didaktik şərtlərindən biridir (4, s.93).

Beləliklə, bu üç prinsip yaradıcılıq qabiliyyətlərinin fərdi inkişafı, təhsil məzmununun bütövlüyü və assosiativ əlaqələrin təşkili, inteqrasiya olunmuş dərslərin elmi-metodoloji bazasını təşkil edir. Onların sistemli tətbiqi həm məzmun standartlarının reallaşdırılmasına, həm də təlimin səmərəliliyinin artırılmasına yönəlmiş kompleks pedaqoji mexanizm yaradır.

İnteqrasiya olunmuş dərslərin metodikasının hazırlanmasında assosiativ əlaqələrin inkişafı və zənginləşdirilməsi mühüm istiqamət kimi qəbul edilir. Bu, şagirdlərdə yeni biliklərin formalaşması və onların yaradıcı şəkildə mənimsənilməsi üçün təməl mexanizmdir. Assosiativ əlaqə qurularkən, hər bir yeni anlayış əvvəlkilərlə məntiqi əlaqədə olur və şagird bir anlayışdan digərinə keçid edərək, özünün fərdi idrak və yaradıcılıq təcrübəsini genişləndirir. Bu proses şagirdin təfəkkür tipindən, analitik və müqayisəetmə bacarığından, hadisələr arasındakı oxşarlıq və fərqləri müəyyənləşdirmək qabiliyyətindən asılı olaraq fərdiləşir.

4. Yenilik prinsipi

İnteqrasiya olunmuş dərslərin ef-fektivliyini təmin edən əsas prinsiplərdən biri də yenilik prinsipidir. Bu prinsipin mahiyyəti, təlim prosesində şagirdlərin maraq və motivasiyasını qorumaq üçün yeni məzmun, metod və şəraitin yaradılmasından ibarətdir. Yenilik prinsipi dərsin müxtəlif komponentlərində tədris materialında, onun təqdimat formasında, ünsiyyət situasiyalarında, iş üsullarında və müəllim-şagird qarşılıqlı fəaliyyətinin strukturunda özünü göstərir.

Yenilik üç səviyyədə təzahür edir:

- Sıfır yenilik-material şagirdlərə artıq məlumdur, lakin yeni kontekstdə təqdim olunur;
- Nisbi yenilik-mövcud biliklərin yeni kombinasiyası və tətbiqi formasında təqdim edilməsi;
- Mütləq yenilik tamamilə yeni məzmunun, problemin və ya fəaliyyət növünün öyrənilməsidir (5, s.21).

Bu prinsipin tətbiqi şagirdlərdə yaradıcı müstəqillik, öz fəaliyyətini planlaşdırmaq bacarığı, problemli vəziyyətlərdə qərarvermə, həmçinin kollektiv əməkdaşlıqda ünsiyyət və ideya mübadiləsi kimi keyfiyyətlərin formalaşmasına səbəb olur. Şagirdlər öz hərəkətlərini şüurlu şəkildə planlaşdırır, müstəqil öyrənmə vərdişləri qazanır və tədris prosesinə fəal subyekt kimi qoşulurlar.

İnteqrasiya olunmuş dərslərdə yenilik prinsipinin həyata keçirilməsi nəticəsində şagirdlər müxtəlif fənlər arasında əlaqə yaradır, yeni məlumatları mənimsəyir və əvvəlki biliklərini yeni situasiyalarda tətbiq etməyi öyrənirlər. Beləliklə, onların əldə etdiyi biliklər daha çevik və funksional xarakter daşıyır, yəni məzmun standartlarında nəzərdə tutulan nəticələrin yaradıcı kontekstdə reallaşmasına şərait yaranır.

Tədris prosesində müəyyən edilmiş bu prinsiplər, assosiativ əlaqə, təhsil məzmununun bütövlüyü, fərdi yaradıcılıq və yenilik inteqrasiya olunmuş dərslərin nəzəri və praktik əsaslarını müəyyənləşdirir. Onların qarşılıqlı əlaqəsi təh-

silin məqsədlərini həyata keçirməyə, şagirdlərin tədris və idrak fəaliyyətini fəallaşdırmağa və yaradıcılıq qabiliyyətlərinin inkişafına xidmət edir (6, s. 319).

Biliklərin ümumiləşdirilməsi və sistemləşdirilməsi, şagirdlərdə yaradıcı potensialı artırmaqla yanaşı, idrak motivasiyasını da gücləndirir. Bu baxımdan, inteqrasiya olunmuş dərslər yalnız fənlərarası əlaqə forması deyil, həm də şagirdin idrak fəallığını, müstəqil düşünmə və problem həll etmə bacarığını inkişaf etdirən tədris modeli kimi çıxış edir.

Müasir elmi yanaşmalara əsasən, inteqrasiya olunmuş təlim dünyanın müxtəlif hadisə və proseslərinin qarşılıqlı əlaqəsini əks etdirən biliklərin sistemləşdirilməsinə yönəlmişdir. Bu yanaşma, şagirdlərin təkcə mövcud məlumatları mənimsəməsini deyil, həm də həmin məlumatlar əsasında yeni reallıq və yeni məzmun formalaşdırmasını nəzərdə tutur (7, s. 44).

Belə dərslərin məzmunu yalnız müxtəlif fənlərdən əldə edilən məlumatların məcmusu deyil, həm də onların qarşılıqlı əlaqəsindən yaranan yeni elmi mənzərədir.

**Nəticə:** Aparılan tədqiqat göstərir ki, tarixin məzmun xətləri əsasında tədrisi müasir təhsil sisteminin əsas tələblərinə cavab verən, elmi-pedaqoji cəhətdən əsaslandırılmış yanaşmadır. Tarix fənninin məzmun xətləri şagirdlərdə tarixi hadisə və proseslərin sistemli, ardıcıl və məntiqi şəkildə qavranılmasına şərait yaradır. Bu məzmun xətləri tarix təliminin yalnız informasiya xarakterli deyil, eyni zamanda inkişafetdirici və tərbiyəedici funksiyalarını da təmin edir. Müəyyən edilmişdir ki, tarixi zaman və tarixi məkan məzmun xətləri şagirdlərdə xronoloji və məkan təfəkkürünün formalaşmasında mühüm rol oynayır, hadisələr arasında səbəb-nəticə əlaqələrinin qurulmasını asanlaşdırır. Dövlət məzmun xətti şagirdlərin dövlətçilik ənənələri, siyasi sistemlər və vətəndaşlıq məsuliyyəti haqqında biliklərinin dərinləşməsinə xidmət edir. Şəxsiyyət məzmun xətti tarixi şəxsiyyətlərin fəaliyyəti əsasında şagirdlərdə liderlik keyfiyyətlərinin, vətənpərvərlik hissinin və obyektiv tarixi qiymətləndirmə bacarığının formalaşmasına imkan yaradır. Mədəniyyət məzmun xətti isə milli-mənəvi dəyərlərin, mədəni irsin qorunması və ümumbəşəri dəyərlərə hörmət kimi keyfiyyətlərin aşılanmasında xüsusi əhəmiyyət kəsb edir.

Nəticə etibarilə, tarixin məzmun xətləri əsasında tədrisi tarix fənninin keyfiyyətinin yüksəldilməsinə, şagirdlərin tarixi düşüncə və analitik bacarıqlarının inkişafına, eləcə də onların vətəndaş kimi formalaşmasına mühüm töhfə verir. Bu yanaşmanın təhsil praktikasında daha geniş və sistemli tətbiqi tarix təliminin səmərəliliyinin artırılması baxımından məqsədəuyğun hesab olunmalıdır.

**Problemin aktuallığı.** Müasir dövrdə təhsil sistemində aparılan islahatlar təlim prosesinin şagirdyönlü, nəticəyönlü və səriştəyə əsaslanan yanaşmalar əsasında qurulmasını zəruri edir. Bu baxımdan tarix fənninin məzmun xətləri əsasında tədrisi xüsusi aktuallıq kəsb edir. Tarixi zaman, tarixi məkan, dövlət, şəxsiyyət və mədəniyyət məzmun xətləri şagirdlərdə tarixi düşüncənin formalaşdırılmasına, hadisə və proseslərin sistemli şəkildə qavranılmasına imkan yaradır. Lakin təhsil praktikasında məzmun xətlərinin tətbiqində bir sıra metodik və təşkilati çətinliklər mövcuddur. Bu səbəbdən tarixin məzmun xətləri əsasında tədrisinin əhəmiyyətinin elmi-nəzəri və praktik baxımdan araşdırılması müasir təhsil üçün aktual problem kimi çıxış edir.

**Problemin yeniliyi.** Tədqiqatın yeniliyi tarix fənninin beş əsas məzmun xətti-tarixi zaman, tarixi məkan, dövlət, şəxsiyyət və mədəniyyət – əsasında tədrisin əhəmiyyətinin sistemli şəkildə təhlil olunmasından ibarətdir. İşdə məzmun xətlərinin tarixi düşüncənin formalaşmasına, şagirdlərin analitik və tənqidi təfəkkürünün inkişafına təsiri kompleks yanaşma əsasında araşdırılır. Eyni zamanda, məzmun xətlərinin qarşılıqlı əlaqəsi və onların təlim prosesində inteqrativ tətbiqi elmi baxımdan əsaslandırılır ki, bu da mövcud pedaqoji tədqiqatlardan fərqli olaraq problemin yeni aspektdən təqdim olunmasını təmin edir.

**Problemin praktik əhəmiyyəti.** Tədqiqatın nəticələri tarix fənninin tədrisində məzmun xətlərinin daha səmərəli tətbiqi üçün praktik əhəmiyyət daşıyır. Əldə olunan müddəalar müəllimlər tərəfindən dərslərin planlaşdırılmasında, təlim metodlarının seçilməsində və qiymətləndirmə prosesinin təşkili zamanı istifadə oluna bilər. Tədqiqat materialları ümumtəhsil məktəblərində tarix müəllimləri, metodistlər, eləcə də pedaqoji ixtisaslar üzrə təhsil alan tələbələr üçün metodik vəsait kimi faydalı ola bilər. Bundan əlavə, işin nəticələri tarix kurikulumunun təkmilləşdirilməsi istiqamətində aparılan elmi-tədqiqatlarda tətbiq edilə bilər.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ümumi tarix fənni üzrə Təhsil Proqramı (kurikulumu) (VI-XI siniflər). – Bakı: 2013.
2. Abbasov, A. M., Məmmədzadə, R. R. Kurikulum nəzəriyyəsi və təcrübəsi. – Bakı: Təhsil, –2016. – 312 s.
3. Bəhrəmova, S. Ş. Tarixi biliklərin inteqrativ öyrədilməsi texnologiyası / S. Ş. Bəhrəmova. – Bakı: Optimist MMC, –2024. – 224 s.
4. Bəhrəmova, S. Ş. Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində ümumi tarix fənninin tədrisinin perspektivləri // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri. – Bakı: 2010. – № 4. – s. 167–172.
5. Cəbrayılov, İ. Azərbaycan tarixinin tədrisi metodikası: Monoqrafiya / İ. Cəbrayılov. – Bakı: Mütərcim, –2006. – 236 s.
6. Əmirov, M. Pedaqoji tədqiqat metodları / M. Əmirov. – Bakı: ADPU-nun nəşriyyatı, –2019. – 88 s.
7. Əmirov, M. İnsan və cəmiyyət: Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti / M. Əmirov. – Bakı: ADPU-nun nəşriyyatı, –2010. – 581 s.
8. Əmirov, M. Ümumtəhsil məktəblərində tarixin fəal/interaktiv təlimi metodikası: Dərs vəsaiti / M. Əmirov. – Bakı: ADPU-nun nəşriyyatı, –2014. – 678 s.
9. Əlizadə, Ə. Ə. Pedaqogikanın aktual problemləri. – Bakı: Elm və Təhsil, –2014. – 286 s.
10. İlyasov, M. Müasir təhsil: ənənədən innovasiyaya: Monoqrafiya / M. İlyasov. – Bakı: Elm və Təhsil, –2021. – 376 s.
11. Musayev, D. Tarixin tədrisində interaktiv metodlardan istifadə imkanları: Monoqrafiya / D. Musayev. – Bakı: ADPU-nun nəşriyyatı, –2022. – 228 s.
12. Ümumi təhsil müəssisələrinin 6-cı sinifləri üçün Azərbaycan tarixi fənn üzrə dərslik. Azərbaycan tarixi: 6-cı sinif üçün dərslik. – Bakı: Şərq-Qərb, –2025. – 114 s.
13. OECD. The future of education and skills: Education 2030. – Paris: OECD Publishing, –2018. – 112 p.
14. Wineburg, S. Historical thinking and other unnatural acts. – Philadelphia: Temple University Press, –2001. – 240 p.


**Redaksiyaya daxil olub:** 03.03.2026